

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 10 (23.897)

*18 yanvar 2022-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*



Yanvarın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Monteneqro parlamentinin sədri Aleksa Beçiç arasında videoformatda görüş olub. Prezident İlham Əliyev Azərbaycanla Monteneqro arasında dostluq münasibətlərinin olduğunu qeyd edərək, ölkələrimiz arasında, o cümlədən dövlət başçıları səviyyəsində mövcud yüksək səviyyəli dialoqu vurğulayıb, parlamentlərarası əlaqələrin inkişafından məmnunluğunu bildirib. Dövlətimizin başçısı müxtəlif sahələrdə, o cümlədən iqtisadi-ticari, enerji, nəqliyyat sahələrində əməkdaşlığın inkişafı üçün yaxşı zəminin olduğunu qeyd edib və bu baxımdan hökumətlərarası birgə komissiyanın fəaliyyətinin önəmini vurğulayıb.

Monteneqro parlamentinin sədri Aleksa Beçiç də, öz növbəsində, ölkələrimiz arasında fəal siyasi dialoqun olduğunu məmnunluqla qeyd edib.

Aleksa Beçiç Monteneqronun Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini daim dəstəklədiyini vurğulayıb, ölkələrimiz arasında əlaqələrin strateji tərəfdaşlıq xarakteri daşıdığını qeyd edərək bu sahədə müvafiq sənədin imzalanmasının vacibliyini vurğulayıb.

Görüşdə, həmçinin beynəlxalq təşkilatlar, o cümlədən parlamentlərarası təsisatlar çərçivəsində ölkələrimizin qarşılıqlı dəstəyi və maraqdoğuran digər məsələlər müzakirə olunub.

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanvar ayının birinci 15 günü ərzində bir sıra qərarlar qəbul edib. Belə ki, Nazirlər Kabinetinin 2022-ci il 11 yanvar tarixli Qərarı ilə "Prokurorluq işçisinin və onun ailə üzvlərinin yeni qulluqkeçmə yerinə köçməsi pulunun və birdəfəlik kompensasiyanın ödənilməsi Qaydası"nda, "Uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının təşkili və aparılması Qaydası"nda və "Naxçıvan Muxtar Respublikasında Fərdi Reabilitasiya Proqramının hazırlanması, təsdiq edilməsi və həyata keçirilməsi Qaydası"nda,"Penitensiar müəssisələrdə cəza çəkmədən azad edilmiş şəxslərin Naxçıvan Muxtar Respublikası ərazisində müvəqqəti yaşayış yeri ilə təminolunma qaydası və həmin müvəqqəti yaşayış yerlərində yaşamaq müddətinin artırılmasının müstəsna halları"nda, "Avtovağzal və avtostansiya haqqında Əsasnamə"də, "Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin polis əməkdaşına xidmət yerinin dəyişdirilməsi ilə əlaqədar köç pulu və birdəfəlik kompensasiyaların miqdarı və ödənilməsi Qaydaları"nda da dəyişiklik edilmişdir. Qanunvericiliyə əsasən 2022-ci il iyulun 1-dən sağlamlıq imkanları məhdudluğun artıq dərəcələr üzrə deyil, orqanizmin funksiyalarının itirilməsi faizinin müəyyən edilməsi prinsipi əsasında təyin edilməsi ilə əlaqədar həmin normativ-hüquqi aktlarda edilmiş dəyişikliklərə görə I və II dərəcə əlilliyi olan şəxslər ifadəsi orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslər ifadəsi ilə, sağlamlıq imkanları məhdud18 yaşınadək uşaqlar ifadəsi 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər ifadəsi ilə əvəz edilmişdir.

Nazirlər Kabinetinin eyni tarixli digər Qərarı ilə "Naxçıvan Muxtar Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilmişdir. Dəyişikliyə uyğun olaraq (ərzaqlıq və damazlıq yumurta, pomidor, soğan, xiyar və kornişon, fındıq, alma, armud, üzüm, xurma, meyvə-tərəvəz şirələri, meyvə-tərəvəz suyu və energetik içkilər, sement və klinker (ağ klinker istisna olmaqla), gips və anhidrit, bentonit, inşaat kərpicləri və blokları, alçıpan, kafel və metlax) spesifik idxal rüsumlarının qüvvədəolma müddəti 31.12.2023-cü il tarixinədək uzadılmışdır, habelə (odadavamlı kərpiclər və bloklar və digər odadavamlı keramika məmulat və materiallarda, bud, böyük baldır sümüyü və ona bitişik ətraf əzələlər olmadan toyuq ayağı və onun hissələri, ağ sementin klinkeri (ağ klinker) spesifik idxal rüsumlarının tətbiqi dayandırılmışdır.

Həmçinin Nazirlər Kabinetinin 2022-ci il 12 yanvar tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasının ümumi istifadədə olan avtomobil yolları ilə hərəkət edən avtonəqliyyat vasitələrinin icazə verilən qabarit və çəki parametrləri"ndə dəyişiklik edilmişdir. Həmin dəyişikliyə görə nəqliyyat vasitəsinin icazə verilən ümumi kütləsi yük avtomobilləri və yəhərli avtoqatarlar üçün artırılmış, nəqliyyat vasitələrinin oxuna düşən yükün icazə verilən kütləsi isə yenidən müəyyən edilmişdir.

Eyni zamanda Nazirlər Kabinetinin 2022-ci il 13 yanvar tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında pedaqoji heyətin dövlət ümumi təhsil və peşə təhsili müəssisələrinə işə qəbulu, bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması Qaydaları"nda edilmiş dəyişikliyə əsasən məktəbəqədər təhsil müəssisələrində tərbiyəçi-müəllim, musiqi rəhbəri və tibb bacısı vəzifələrinin tutulması Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən müsabiqə yolu ilə həyata keçiriləcəkdir.

Qəbul olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar.nakhchivan.az)* tanış olmaq mümkündür.

## Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasından irəli gələn vəzifələr müəyyənləşdirilib, ötən ilin yekunları müzakirə olunub



*Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində ötən ilin yekunları və cari ildə qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclasını daxili işlər nazirinin müavini, nazir vəzifələrini icra edən, polis polkovniki Rəşad İsmayılov açaraq məruzə edib.*

Qeyd olunub ki, daxili işlər orqanları Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin göstərdiyi qayğıdan və yaradılan şəraitdən səmərəli istifadə edərək ictimai asayişin və təhlükəsizliyin qorunmasında, cinayətkarlığa qarşı mübarizədə qətiyyətli və prinsipial mövqe nümayiş etdirməkdədir. 2021-ci ildə Daxili İşlər Nazirliyi və Prokurorluqda muxtar respublika ərazisində törədilmiş cinayət hadisələri üzrə 31 cinayət işi başlanaraq istintaqı aparılıb. Baş vermiş cinayət hadisələrindən 12-si və ya 24,5 faizi ehtiyatsızlıqdan törədilən cinayətlər olub. İl ərzində törədilmiş cinayətlərin açılması 100 faiz təmin edilib, insan alveri ilə bağlı cinayət hadisəsi qeydə alınmayıb. Həmçinin axtarışda olan 2 təqsirləndirilən şəxsin tutularaq istintaq orqanlarına təhvil verilməsi təmin edilib, ötən ildə olduğu kimi axtarışda olan şəxslərin tutulması 100 faiz olub.

Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığa qarşı mübarizəyə dair 2021-ci il ərzində keçirilmiş tədbirlər nəticəsində 1 cinayət və 18 inzibati fakt aşkar edilib. 2020-ci illə müqayisədə narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı aşkarlanan faktların sayı 2 cinayət, 12 inzibati fakt azalıb.

Hesabat dövründə keçmiş illərdən qapalı qalmış 1 cinayət işi üzrə icraat təzələnərək Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 39-cu maddəsinin müvafiq bəndinə əsasən xitam edilib.

Diqqətə çatdırılıb ki, dövlət yol polisi əməkdaşları inzibati xətalara qarşı, o cümlədən nəqliyyat vasitələrini sərxoş vəziyyətdə idarə edən sürücülərə qarşı mübarizə tədbirlərini 2021-ci il ərzində də davam etdirib, 229 sərxoş sürücü aşkar edilərək barələrində qanuni tədbirlər görülüb. "Təhlükəsiz şəhər" layihəsi çərçivəsində quraşdırılmış kameralar vasitəsilə il ərzində 350 hadisə aşkarlanıb ki, onlardan 301-i maddi zərərlə nəticələnən yol-nəqliyyat hadisəsi, 49-u isə piyadalarla bağlı olub.

Qeyd edilib ki, nazirliyin Pasport və Qeydiyyat Şöbəsi tərəfindən 2021-ci il ərzində 10639 şəxsə ümumvətəndaş pasportu verilib. Ərazi polis orqanlarının qeydiyyat və şəxsiyyət vəsiqəsi xidmətləri tərəfindən isə 56498 vətəndaş, o cümlədən cəzaçəkmə müəssisələrindən azadlığa buraxılmış 41 nəfər şəxsiyyət vəsiqəsi ilə təmin olunub. Bundan əlavə, ölkəmizin digər bölgələrində yaşayan muxtar respublika sakinlərinin biometrik şəxsiyyət vəsiqəsi ilə təmin edilməsi məqsədilə Bakı şəhərinə ezam olunmuş aidiyyəti xidmət əməkdaşları tərəfindən 7361 nəfərə biometrik şəxsiyyət vəsiqəsi verilib.

Vətəndaş məmnunluğunun təmin edilməsi çərçivəsində muxtar respublika rəhbərinin həyata keçirdiyi tədbirlərin bariz nümunəsi olan Daxili İşlər Nazirliyinin "Səyyar xidməti" tərəfindən 68 dəfə Şərur, 58 dəfə Babək, 33 dəfə Ordubad, 37 dəfə Culfa, 17 dəfə Şahbuz, 16 dəfə Kəngərli, 8 dəfə isə Sədərək rayonu ərazisində 16900 müraciət qəbul olunaraq qüsursuz icra edilib.

Hesabat ilində daxili işlər orqanları tərəfindən həyata keçirilən profilaktik-maarifləndirmə tədbirləri nəticəsində vətəndaşlar tərəfindən 193 ədəd müxtəlif növ silah, 8631 ədəd müxtəlif növ döyüş sursatı könüllü olaraq təhvil verilib.

Diqqətə çatdırılıb ki, şəxsi heyət arasında mənəvi-psixoloji durumun yüksəldilməsi istiqamətində il ərzində xidməti fəaliyyətin yerinə yetirilməsində fərqlənən əməkdaşların əməyi qiymətləndirilərək 1146 əməkdaş müxtəlif mükafatlara layiq görülüb.

Sonra məruzə ətrafında çıxışlar olub.



Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyində keçirilən kollegiya iclasını giriş sözü ilə açan ekologiya və təbii sərvətlər naziri Mayis Əliyev bildirib ki, hesabat ilində muxtar respublika ərazisində nazirlik, idarə və müəssisələr, rayon, şəhər icra hakimiyyətləri və vətəndaşlar tərəfindən, ümumilikdə, 533,5 hektar sahədə meşəsalma, meşəbərpa işləri aparılmış, yeni meyvə bağları salınmış, toxumla əkin aparılmışdır. Aparılan əkin işlərində, ümumilikdə, 330 min meyvə, meşə, həmişəyaşıl tinglər, üzüm, bəzək və gül kolları əkilmişdir. Muxtar respublika ərazisində aparılan yaşıllaşdırma tədbirlərində tingə olan tələbatın davamlı təmin edilməsi, regionun torpaq və iqlim xüsusiyyətlərinə uyğunlaşdırılmış ting materialının yetişdirilməsi məqsədilə 4 hektar ərazidə toxmacarlıq və qələmkökləndirmə sahələri yaradılmış, tinglik təsərrüfatlarında növ müxtəlifliyi diqqətdə saxlanılmış, həmçinin təcrübə məqsədilə əkinlər aparılmış, 7650 üzüm, 7400 iydə, 2200 çinar qələmləri əkilmişdir. Qeyd edilmişdir ki, mövsüm ərzində bərpa işlərinin fasiləsiz aparılması məqsədilə 3000-dən artıq dibçəkdə ting yetişdirilmişdir. Dövlət Meşə Fondu torpaqlarında və xüsusi mühafizə olunan təbiət ərazilərində 600-ə yaxın müxtəlif cır meyvə ağaclarına calaq vurulmuşdur. Əkin işlərində toxumla əkinin üstünlükləri, ərazinin torpaq-iqlim şəraitinə uyğunlaşması, relyefi mürəkkəb ərazilərdə səmərəliliyi əsas götürülərək Ağbulaq Kənd-Turizm İstirahət Bölgəsi, Darıdağ Arsenli Su Müalicəxanası, Uzunoba Su Anbarı ətrafında və xüsusi mühafizə olunan təbiət ərazilərində 187 hektar sahədə şırım üsulu ilə toxumla əkin aparılmış, 2700 kiloqramdan artıq üzüm, alça, ardıc, palıd, həmərsin, yemişan, badamça, iydə toxumları əkilmişdir.

Vurğulanmışdır ki, muxtar respublikada keçirilən yaşıllaşdırma tədbirlərində 21 hektarı üzüm olmaqla, 123 hektar sahədə meyvə bağı, yaşıllıq zolaqları salınmış, püstə bağında lazımi aqrotexniki işlər görülmüş, yerli şəraitdə yetişdirilmiş püstə tingləri ilə 2 hektar sahədə yeni püstə bağı salınmışdır. Həyata keçirilmiş yaşıllaşdırma işlərinin nəticəsi olaraq hesabat dövründə 3500 kiloqramdan artıq meyvə toplanaraq hərbi hissələrə sovqat verilmişdir.

Sonda məruzə ətrafında çıxışlar dinlənilib.

**Xəbərlər şöbəsi**

# Ötən ilin yekunları müzakirə olunub



Naxçıvan Muxtar Respublikası Gənclər Fondunda keçirilən iclasda fondun icraçı direktoru Cəbi Quliyev çıxış edərək bildirib ki, ötən il Gənclər Fondu üçün əlamətdar hadisələrlə yadda qalıb. Fondun təşkilatçılığı ilə il ərzində gənclər arasında müxtəlif müsabiqələr, mədəni tədbirlər, intellektual oyunlar keçirilib, yay məktəbləri və düşərgələr təşkil olunub.

Qeyd edilib ki, il ərzində Naxçıvan şəhərində "Azərbaycan-Türkiyə Gənclərinin Beynəlxalq Zəfər Düşərgəsi", Türkiyə Respublikasının Qaziantep şəhərində "Azərbaycan-Türkiyə Gənclərinin II Beynəlxalq Zəfər Düşərgəsi", Ağbulaq İstirahət Mərkəzində "Elm və İnnovasiya Düşərgəsi", "STEAM yay məktəbi", "Şəhid və Qazi Övladları üçün Zəfər Düşərgəsi", "Gənclər təşkilatlarının 2022-ci il üçün fəaliyyət strategiyasının planlaşdırılması düşərgəsi" və "Marş irəli" hərbi simulyasiyalı düşərgə həyata keçirilib. Bundan əlavə, gənclər üçün keçirilən ənənəvi "Yay məktəbi"ndə ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri, Heydər Əliyev adına Hərbi Liseyin kursantları və könüllü gənclərdən ibarət, ümumilikdə, 200-dən çox gəncin iştirakı təmin olunub.

İl ərzində uğurla baş tutan tədbirlərdən biri kimi yerli blogerlərin muxtar respublikaya səfəri qeyd edilməlidir. Səfər müddətində 27 yerli bloger öz sosial şəbəkə səhifəsində muxtar respublika ərazisindən yüzlərlə paylaşım edib, təəssüratlarını izləyiciləri ilə bölüşüb.

Vurğulanıb ki, "Nizami Gəncəvi ili" çərçivəsində Gənclər Fondu da ölməz sənətkarın həyatı və yaradıcılığının, ideallarının muxtar respublika gənclərinə tanıdılması və təbliği məqsədilə bir sıra tədbirlər keçirib. 2021-ci il ərzində muxtar respublikanın şəhər və rayonlarında müxtəlif mövzuları əhatə edən təlimlər, həmçinin kitab müzakirələri, yazıçılarla görüşlər, bir sıra intellektual oyunlar və bilik yarışları keçirilib. Rayon gənclərinin Naxçıvan şəhərinə ekskursiyaları təşkil olunub, onlar üçün təlimlər təşkil edilib.

Bildirilib ki, "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"nın icrası və yol hərəkətinin təhlükəsizliyi sahəsində təbliğat-təşviqat işinin təşkili ilə bağlı Gənclər Fondu tərəfindən, ümumilikdə, 190 layihə və tədbir keçirilib.

Sonda çıxışlar olub.



Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasında keçirilən yığıncağı şuranın sədri Anar İbrahimov açaraq məruzə edib. Bildirilib ki, şura fəaliyyətini 2021-ci il üçün tərtib olunmuş İş planına və Tədbirlər proqramına uyğun davam etdirib. Belə ki, 18 yanvar 2021-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası Məclisinin birinci iclası keçirilib, şuranın və tabe təşkilatların 2021-ci ilə dair illik statistik hesabatları tərtib və təsdiq edilib, daxil olan ərizə və şikayətlərə vaxtında və qanunun tələbləri əsasında baxılıb, bir çox təşkilatlarda müddəti başa çatmış kollektiv müqavilələr yenilənib, ittifaq üzvlərinin sağlamlığının qayğısına qalınıb, onlar kurort və sanatoriya yollayışları ilə təmin olunublar. Şura hazırda 763 ilk həmkarlar ittifaqı təşkilatını, 10 Birləşmiş Həmkarlar İttifaqı Komitəsini, 6 muxtar respublika komitəsini özündə birləşdirir. İttifaq üzvlərin sayı isə 46134 nəfərdir.

Diqqətə çatdırılıb ki, bu gün şuranın sıralarında olan gənclər hərtərəfli diqqət və qayğı ilə əhatə edilib. Ötən il 3 fəal ittifaq üzvü Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası İcraiyyə Komitəsinin 2020-ci il üzrə "Əməkdə, təhsildə və ictimai fəaliyyətdə xüsusi nailiyyətlər əldə etmiş gənclərə "İlin peşəkar gənci" fəxri adının təsis edilməsi haqqında" keçirdiyi müsabiqənin qalibi fəxri adına layiq görülüb, onlara konfederasiyanın fəxri diplomu, döş nişanı və vəsiqəsi təqdim edilib. Həmin ay Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası – "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin Təhlükəsizlik İdarəsi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının "Sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması üzrə ən yaxşı müəssisəsi (təşkilatı)" devizi ilə keçirilən respublika müsabiqəsinin qalibi olub. "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin Təhlükəsizlik İdarəsinin kollektivinə konfederasiyanın fəxri diplomu və qiymətli hədiyyəsi, şura tərəfindən isə bir qrup əməkdaşa fəxri fərman və pul mükafatı verilib.

Şura bu il də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası İcraiyyə Komitəsinin 2021-ci il üzrə "Əməkdə, təhsildə və ictimai fəaliyyətdə xüsusi nailiyyətlər əldə etmiş gənclərə "İlin peşəkar gənci" fəxri adının təsis edilməsi haqqında" keçirdiyi müsabiqədə fəal iştirak edir. Bu məqsədlə dekabr ayının 27-si şurada müsabiqə komissiyası yaradılıb.

Yığıncaq məruzə ətrafında çıxışlarla yekunlaşıb.

* * *



Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətində keçirilən kollegiya iclasını xidmətin rəisi Vəli Novruzov açaraq qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 17 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2020-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında baytarlıq təbabətinin inkişafı üzrə Dövlət Proqramı"ndan irəli gələn vəzifələr ötən il də uğurla yerinə yetirilib, baytarlıq sahəsində həyata keçirilən quruculuq işlərinin davamı olaraq istifadəyə verilən yeni kənd mərkəzlərində sahə baytar məntəqələri üçün otaqlar hazırlanıb.

Diqqətə çatdırılıb ki, Ali Məclis Sədrinin "Baytarlıq sahəsində həyata keçirilən xidmətlərin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 2021-ci il 4 oktyabr tarixli Fərmanına əsasən muxtar respublikada özəl baytarlıq xidməti müəssisələri vasitəsilə baytarlıq xidmətləri göstərilməsinə mərhələli keçidə başlanılıb.

Bildirilib ki, ötən il ərzində muxtar respublika üzrə iribuynuzlu heyvanların cins tərkibinin yaxşılaşdırılması məqsədilə süni mayalanma işləri də davam etdirilib. Xidmət tərəfindən muxtar respublikada arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə saxladıqları hər arı ailəsinə (pətəyə) görə subsidiya verilməsi qaydasına uyğun olaraq 3965 sahibkara məxsus 99 min 740 arı ailəsi (pətəkləri) qeydiyyata alınıb və hər arı ailəsinə görə 10 manat olmaqla, sahibkarlara dövlət vəsaiti hesabına subsidiyanın verilməsi təmin edilib.

"Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamlarının icrası məqsədilə görüşlər keçirilib.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

**Xəbərlər şöbəsi**

# Yeni tibbi avadanlıqlar alınmışdır

Naxçıvan şəhərindəki Əlillərin Bərpa Mərkəzinə və Uşaq Bərpa Mərkəzinə yeni tibbi avadanlıqlar alınıb. Bu münasibətlə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Nicat Babayev bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində xüsusi qayğıya ehtiyacı olan vətəndaşların, o cümlədən sağlamlıq imkanları məhdud şəxslərin sosial müdafiəsinin təmin edilməsi məqsədilə son illərdə muxtar respublikada kompleks tədbirlər həyata keçirilmiş, bu sahədə maddi-texniki baza möhkəmləndirilmiş və həmin kateqoriyadan olan şəxslərə göstərilən xidmətlərin həcmi və keyfiyyəti artırılmışdır. Sağlamlıq imkanları məhdud şəxslərin tibbi və sosial reabilitasiyası daim diqqətdə saxlanılmış, onlar müvafiq texniki-bərpa vasitələri və protez-ortopedik məmulatlarla təmin edilmişdir. Bu sahədə işlərin günün tələbləri səviyyəsində təşkili məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə Naxçıvan şəhərində Əlillərin Bərpa Mərkəzi və Uşaq Bərpa Mərkəzi istifadəyə verilmiş və hər iki mərkəz bütün zəruri tibbi avadanlıqlarla təchiz olunmuşdur.



Vurğulanıb ki, ötən müddət ərzində, bərpa müəssisələrinin uğurlu fəaliyyəti nəticəsində, son illərdə muxtar respublikadan kənarda reabilitasiya keçmək istəyən şəxslərin sayında azalma müşahidə olunmuşdur. Ötən il bərpa mərkəzlərində, ümumilikdə, 500-dən artıq şəxsin müalicə kursu qəbul etməsi təmin edilmişdir ki, onların da 12 nəfəri İkinci Qarabağ müharibəsi iştirakçısı olmuşdur.

Qeyd edilib ki, son illərdə bu müəssisələrdə həyata keçirilən müayinə və müalicə işinin həcminin artması və tibb sahəsindəki müasir yeniliklərin tətbiqi, həmçinin Tibbi-Sosial Ekspert Komissiyasında müayinə zamanı sağlamlıq imkanları məhdudluğa görə müraciət edən şəxslərə qoyulmuş diaqnozların dəqiqləşdirilməsi məqsədilə mərkəzlərdə istismar müddəti bitmiş avadanlıqların yenisi ilə əvəz olunması, həmçinin xəstələrin müalicəsində effektiv olan yeni tibbi avadanlıqların alınması istiqamətində də tədbirlər həyata keçirilmişdir.

Əmək və əhalinin sosial müdafiəsi naziri sağlamlıq imkanları məhdud şəxslərə göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Daha sonra bərpa mərkəzlərinin kollektivləri adından nazirliyin Tibbi Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin direktoru Yasin Əliyev çıxış edərək yaradılan şəraitə görə minnətdarlıq edib.

Tədbirin davamında yeni alınmış avadanlıqlara baxış keçirilib, onların funksiya və göstəriciləri haqqında məlumatlar dinlənilib.

Qeyd edək ki, yeni alınmış cihazlardan universal trenajor, maqnitoterapiya, mikrodalğa, ultrasəslə müayinə, vakuum terapiya, traksion aparatları, velotrenajor avadanlığı, elektroensefaloqrafiya, elektrostimulyasiya, ultrasəs terapiya, infraqırmızı şüa, ENMQ, amplipuls, lazerterapiya, spirometriya, hemoqlabin A1C analizatoru, qlükometr cihazları, ayaqaltı koordinasiya aləti, qısa dalğa diatermiya, kiçik motorikanı inkişaf etdirən alətlər dəsti kimi müasir avadanlıqlar tibb sahəsi üzrə ən yüksək standartlara cavab verir və funksionallıq baxımından bütün müasir texniki parametrlərə uyğundur.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# Naxçıvan Muxtar Respublika Xəstəxanasının yeni veb-saytının təqdimatı



Təqdimat mərasimində yeni sayt barədə məlumat verən xəstəxananın baş həkimi Zəbur Bağırov bildirib ki, *nmrxestexanasi.az* domenində yaradılan sayt dizayn, quruluş və məzmun baxımından zəruri tələblərə cavab verir. Yeni veb-saytı xəstəxananın fəaliyyətinin ayrı-ayrı istiqamətlərinin daha dolğun və operativ şəkildə ictimaiyyətə çatdırılmasını təmin edəcəkdir.

Bildirib ki, veb-saytın yaradılmasında əsas məqsəd muxtar respublika əhalisinin xəstəxana xidmətlərindən istifadəsini daha əlçatan etməkdir. Veb-saytın ən üstün xüsusiyyəti Azərbaycan səhiyyəsində ilk olaraq QR kodlarla həkimlərin profillərinin paylaşılmasıdır. Belə ki, həkimlər tərəfindən vətəndaşlara təqdim edilən vizit kartların üzərindəki QR kodları smartfonlar vasitəsilə oxutmaqla onun haqqında məlumatları, o cümlədən həkimin müayinə və müalicələrini, göstərdiyi xidmətləri, həmçinin müayinə və müalicə videolarını, uğur və təcrübə faizini, əlaqə məlumatları kimi önəmli məlumatları almaq mümkündür.

Naxçıvan Muxtar Respublika Xəstəxanasının təcili yardım həkimi Hüseyn Əsgərov veb-saytın strukturu və üstünlükləri barədə ətraflı məlumat verib.

# Tibbi aksiyalar uğurla həyata keçirilib

Muxtar respublikada yaradılan müasir səhiyyə infrastrukturu, professional tibbi heyət sosial siyasət çərçivəsində humanitar tibbi aksiyaların da həyata keçirilməsinə geniş imkanlar açıb. Belə ki, Akademik M.Mirqasımov adına Respublika Klinik Xəstəxanasının yüksəkixtisaslı həkim heyəti tərəfindən yanvarın 12-dən Naxçıvan Diaqnostika Müalicə Mərkəzində start götürən humanitar tibbi aksiya başa çatıb. 3 günlük humanitar aksiya çərçivəsində 14 nəfərlik yüksəkixtisaslı heyət yerli tibbi kadrlarla birlikdə muxtar respublika sakinlərinə, o cümlədən şəhid ailələrinə və qazilərə təmənnasız tibbi xidmət göstərib. Aksiya çərçivəsində 1724 nəfərdə 3 min 218 müayinə aparılıb. 82 nəfər cərrahiyyə əməliyyatına cəlb olunub.

Muxtar respublikada şəhid və aztəminatlı ailələrin, Vətən müharibəsində iştirak edən və yaralanan hərbçilərimizin müalicəsi, sağlamlıqlarının qorunması diqqətdə saxlanılır. Bu məqsədlə Naxçıvan Muxtar Respublika Xəstəxanası onlara ödənişsiz tibbi xidmət aksiyasını davam etdirir. Yanvarın 14-də keçirilən növbəti aksiyanın ünvanı Ordubad rayonu olub. Rayon Mərkəzi Xəstəxanasında keçirilən aksiyada 44 uşaq dini qaydalarımıza görə əməliyyat edilib. Şəhid ailəsindən olan 2 nəfər fizioterapiya müayinəsi, 3 nəfər isə MRT və digər müayinələr üçün stasionara dəvət edilib.



Qeyd edək ki, 2021-ci ildə Naxçıvan Muxtar Respublikası Xəstəxanasının 2021-ci ildə yaradılmış həkim briqadaları 23 aksiya çərçivəsində 1277 nəfəri hərtərəfli tibbi müayinələrdən keçirmiş, təyinat və məsləhətlər verilmişdir. Bu müayinələrdə 77 şəhid ailəsinin 259 nəfər ailə üzvü, 207 evdə baxıma ehtiyacı olan, 58 Qarabağ müharibəsi qazisi, Ordubad şəhərindəki M.Füzuli adına tam orta internat məktəbində 92 uşaq, 1 Çernobıl iştirakçısı, 845 digər müayinəyə ehtiyacı olan şəxslər keçirilmiş, təyinat və məsləhətlər verilmişdir. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində şəhid ailələrinə, Vətən müharibəsi qazilərinə və onların ailə üzvlərinə göstərilən səhiyyə xidmətinin keyfiyyətinə nəzarətin təmin edilməsi üçün komissiya yaradılıb. Komissiyanın təşkilatçılığı ilə aksiya muxtar respublikanın digər rayonlarında da ilboyu davam etdiriləcək.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***



# *"Naxçıvan Premium Turniri-2"* davam edir

*Naxçıvan şəhərində yerləşən "Gənclik" Mərkəzində şahmat üzrə "Naxçıvan Premium Turniri-2"də 4-cü turun oyunları keçirilib.*

Bu turda beynəlxalq qrossmeyster Urfan Sevdimalıyev (2353) Seyid Hüseynlə (2098) üzüzə gəlib. Maraqla gözlənilən görüşün qalibi Urfan olub. Beynəlxalq usta Toğrul Həsənzadə (2293) də bu turu qələbə ilə başa vurub. O, Rza Həsənli (1582) üzərində qələbə qazanmaqla buna nail olub. FIDE ustası Sadiq Məmmədov (2177) İlkin Qəbulovu (1602), Sadiq Qarayev (2126) isə Nazlı Hümbətovanı (1629) məğlub etməklə aktivlərinə bir xal yazdırmağı bacarıblar.

Beynəlxalq usta Pərviz Qasımov (2359) da bu turu qələbə ilə başa vurub. Ayxan Əliyev (1983) üzərində qələbə qazanan Pərviz xal ehtiyatını 2,5 edib. Ata və qızının – Beynəlxalq usta Talıb Babayev (2258) və FIDE ustası olan Nəsrin Babayevanın (2017) duelində isə qalib gələn tərəf ata Babayev olub.

Dörd turdan sonra turnir cədvəlində 5 zəka sahibi – Toğrul Həsənzadə, Talıb Babayev, Urfan Sevdimalıyev, Sadiq Məmmədov və Sadiq Qarayevin 3 xalı var.

Bu gün beşinci turun oyunları keçiriləcək. Bu turda aşağıdakı cütlüklər qarşılaşacaq:

*Urfan Sevdimalıyev – Talıb Babayev*
*Sadiq Məmmədov - Toğrul Həsənzadə*
*Nəsrin Babayeva – İlkin Qəbulov*
*Rza Həsənli - Ayxan Əliyev*
*Pərviz Qasımov - Nazlı Hümbətova*
*Sadiq Qarayev – Seyid Hüseyn*

**Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi

## Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin tabeliyindəki müəssisələrə işə qəbul üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər 18 yanvar-18 fevral 2022-ci il tarixlərdə Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin internet portalında ***(www.dim.nmr.az)*** "şəxsi kabinet" bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Namizədlər 70 manat ödəniş məbləğini "şəxsi kabinet" vasitəsilə bank kartları ilə ödəyə bilərlər. Digər halda həmin məbləğ Dövlət İmtahan Mərkəzinin "Naxçıvanbank" ASC-dəki bank hesabına (AZ50NAXB36015000024840000AZN) ödənməli və ödənişə dair qəbz həftənin iş günləri saat 9[00]-dan 12[30]-dək və 14[00]-dan 17[30]-dək mərkəzə təqdim edilməlidir.

Namizəd bir neçə vakant vəzifənin tutulması üçün müraciət edə bilər.

Namizədlər elektron müraciət formasını doldurarkən iddia etdikləri vakant vəzifələrin tutulma şərtlərini nəzərə almalıdırlar.

Qeydiyyatdan keçməkdə çətinlik çəkən namizədlər Dövlət İmtahan Mərkəzinə gəlməklə müraciət edə bilərlər.

Maraqlananlar mərkəzin ***(036) 545-65-71*** nömrəli əlaqə telefonu və ya ***dim@nmr.az*** elektron poçt ünvanı vasitəsilə ətraflı məlumat əldə edə bilərlər.

| Vəzifə kodu | Tabe təşkilat və ya struktur bölmə | Vəzifə | Ştat sayı |
|---|---|---|---|
| 940001004 | Nazirliyin Mərkəzi Mühasibatlığı | Aparıcı mühasib | 1 |
| | | **Cəmi:** | **1** |
| | Naxçıvan Dövlət Filarmoniyası | Baş inzibatçı | 1 |
| 940002094 | | Mühasib-xəzinədar | 1 |
| 940002075 | | Quruluşçu rejissor | 1 |
| 940002091 | | Musiqi redaktoru | 1 |
| 940002073 | | Konsert aparan artist | 1 |
| 940002059 | | Xalq çalğı alətləri orkestri, orkestr artisti (nağara) | 2 |
| 940002056 | | Xalq çalğı alətləri orkestri, orkestr artisti (balaban) | 2 |
| 940002057 | | Xalq çalğı alətləri orkestri, orkestr artisti (bas tar) | 1 |
| 940002060 | | Xalq çalğı alətləri orkestri, orkestr artisti (tar) | 7 |
| 940002058 | | Xalq çalğı alətləri orkestri, orkestr artisti (kamança) | 4 |
| 940002062 | | Xalq çalğı alətləri orkestri, vokal artisti (qadın) | 6 |
| 940002061 | | Xalq çalğı alətləri orkestri, vokal artisti (kişi) | 6 |
| 940002067 | | Kamera orkestri, orkestr artisti (kontrabas) | 1 |
| 940002069 | | Kamera orkestri, orkestr artisti (violonçel) | 1 |
| 940002066 | | Kamera orkestri, orkestr artisti (klarnet) | 1 |
| 940002065 | | Kamera orkestri, orkestr artisti (alt (viola) | 1 |
| 940002068 | | Kamera orkestri, orkestr artisti (skripka) | 8 |
| 940002047 | | Estrada orkestri, orkestr artisti (trombon) | 1 |
| 940002041 | | Estrada orkestri, orkestr artisti (elektro gitara (akustik gitara) | 1 |
| 940002039 | | Estrada orkestri, orkestr artisti (saksafon) | 2 |
| 940002044 | | Estrada orkestri, orkestr artisti (klarnet) | 1 |
| 940002040 | | Estrada orkestri, orkestr artisti (bas gitara) | 1 |
| 940002043 | | Estrada orkestri, orkestr artisti (fortepiano) | 1 |
| 940002046 | | Estrada orkestri, orkestr artisti (skripka) | 7 |
| 940002042 | | Estrada orkestri, orkestr artisti (fleyta) | 1 |
| 940002045 | | Estrada orkestri, orkestr artisti (ritm qurğu (udarnik) və bonqlar) | 1 |
| 940002076 | | Mahnı və Rəqs Ansamblı, xor artisti (qadın, alt) | 6 |
| 940002122 | | Mahnı və Rəqs Ansamblı, xor artisti (kişi, tenor) | 1 |
| 940002123 | | Mahnı və Rəqs Ansamblı, xor artisti (kişi, bas) | 1 |
| 940002082 | | Mahnı və Rəqs Ansamblı, rəqqas | 9 |
| 940002081 | | Mahnı və Rəqs Ansamblı, orkestr artisti (qarmon) | 2 |
| 940002079 | | Mahnı və Rəqs Ansamblı, orkestr artisti (balaban) | 1 |
| 940002078 | | Mahnı və Rəqs Ansamblı, orkestr artisti (kamança) | 1 |
| 940002077 | | Mahnı və Rəqs Ansamblı, orkestr artisti (bas tar) | 1 |
| | | **Cəmi:** | **83** |
| | Naxçıvan Dövlət Uşaq Filarmoniyası | Bədii rəhbər (xalq çalğı alətləri ansamblı üzrə) | 1 |
| 940003020 | | Bədii rəhbər (vokal qrupu üzrə) | 1 |
| 940003111 | | Bədii rəhbər (xanəndəlik üzrə) | 1 |
| 940003103 | | Rəssam | 1 |
| 940003112 | | Konsertmeyster | 1 |
| | | **Cəmi:** | **5** |
| | Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı | Quruluşçu rejissor | 1 |
| 940004090 | | Musiqi hissə rəhbəri | 1 |
| 940004048 | | Ədəbi dram hissənin rəhbəri | 1 |
| 940004102 | | Rejissor assistenti | 1 |
| 940004037 | | Dram artisti (qadın) | 6 |
| 940004036 | | Dram artisti (kişi) | 3 |
| 940004099 | | Orkestr artisti | 8 |
| 940004109 | | Vokalçı artist (qadın) | 1 |
| 940004108 | | Vokalçı artist (kişi) | 1 |
| 940004034 | | Dekorçu rəssam | 1 |
| | | **Cəmi:** | **24** |
| | Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı | Baş inzibatçı | 1 |
| 940005075 | | Quruluşçu rejissor | 1 |
| 940005113 | | Artist (aktrisa) | 2 |
| 940005021 | | Bədii rəhbərin truppa üzrə köməkçisi | 1 |
| 940005033 | | Butaforçu-dekoratorçu | 2 |
| | | **Cəmi:** | **7** |
| 940006074 | Naxçıvan Dövlət Uşaq Teatrı | Quruluş hissə müdiri | 1 |
| | | **Cəmi:** | **1** |
| | Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanası | Şöbə müdiri | 1 |
| 940007026 | | Bölmə müdiri | 1 |
| 940007110 | | Zal müdiri | 1 |
| 940007071 | | Kitabxanaçı | 2 |
| | | **Cəmi:** | **5** |
| | Heydər Əliyev Sarayı | Bədii rəhbər | 1 |
| 940009087 | | Metodist | 1 |
| 940009106 | | Tərtibatçı rəssam | 1 |
| | | **Cəmi:** | **3** |
| 940010038 | Heydər Əliyev Muzeyi | Elmi işçi | 1 |
| | | **Cəmi:** | **1** |
| 940017113 | Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyi | Baş elmi işçi | 1 |
| | | **Cəmi:** | **1** |
| 940018011 | Bəhruz Kəngərli Muzeyi | Baş fond mühafizi-elmi işçi | 1 |
| | | **Cəmi:** | **1** |
| 940019121 | Naxçıvan Duz Muzeyi | Baş fond mühafizi-bələdçi | 1 |
| | | **Cəmi:** | **1** |
| 940011023 | Naxçıvan Dövlət Tarix Muzeyi | Bələdçi | 1 |
| | | **Cəmi:** | **1** |
| 940013106 | "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi | Tərtibatçı rəssam | 1 |
| | | **Cəmi:** | **1** |
| 940014010 | Xatirə Muzeyi | Baş fond mühafizi | 1 |
| | | **Cəmi:** | **1** |
| 940020023 | "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi | Bələdçi | 1 |
| | | **Cəmi:** | **1** |
| | Mədəniyyət üzrə Elmi-Metodik Mərkəz | Şöbə müdiri | 1 |
| 940015115 | | Aparıcı metodist | 1 |
| | | **Cəmi:** | **2** |
| | **Naxçıvan Şəhər Mədəniyyət Şöbəsi** | | |
| 941001093 | Naxçıvan Şəhər Mədəniyyət Şöbəsinin mərkəzi mühasibatlığı | Mühasib | 1 |
| 941003035 | 2 nömrəli Mədəniyyət Evi | Direktor | 1 |
| 941004088 | 3 nömrəli Mədəniyyət Evi | Mədəni təşkilatçı | 1 |
| 941006018 | Qaraxanbəyli kənd mədəniyyət evi | Bədii rəhbər | 1 |
| | Tumbul kənd mədəniyyət evi | Bədii rəhbər | 1 |
| 941007088 | | Mədəni təşkilatçı | 1 |
| 941009105 | Naxçıvan Şəhər İmran Qasımov adına Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanası, Komplektləşdirmə və kitabişləmə şöbəsi | Şöbə müdiri | 1 |
| | Naxçıvan Şəhər İmran Qasımov adına Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanası, Oxuculara xidmət şöbəsi | Oxu zalının müdiri | 1 |
| 941010013 | | Baş kitabxanaçı | 1 |
| 941012105 | Naxçıvan Şəhər İmran Qasımov adına Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanası, Uşaq şöbəsi | Şöbə müdiri | 1 |
| 941019071 | Naxçıvan Şəhər Məmməd Məmmədov adına 1 nömrəli Uşaq Musiqi Məktəbi | Kitabxanaçı | 1 |
| 941020071 | Naxçıvan Şəhər Səfər Rəcəbov adına 3 nömrəli Uşaq Musiqi Məktəbi | Kitabxanaçı | 0,5 |
| | | **Cəmi:** | **11,5** |
| | **Şərur Rayon Mədəniyyət Şöbəsi** | | |
| 942001093 | Şərur Rayon Mədəniyyət Şöbəsinin mərkəzi mühasibatlığı | Mühasib | 1 |
| | Şərur Rayon Mədəniyyət Sarayı | Metodist | 2 |
| 942002088 | | Mədəni təşkilatçı | 1 |
| | Axura kənd mədəniyyət evi | Direktor | 1 |
| 942003088 | | Mədəni təşkilatçı | 1 |
| 942004035 | Alışar kənd mədəniyyət evi | Direktor | 1 |
| 942005018 | Aşağı Yaycı kənd mədəniyyət evi | Bədii rəhbər | 1 |
| | Çərçiboğan kənd mədəniyyət evi | Direktor | 1 |
| 942007088 | | Mədəni təşkilatçı | 1 |
| | Çomaxtur kənd mədəniyyət evi | Bədii rəhbər | 1 |
| 942008088 | | Mədəni təşkilatçı | 1 |
| | Düdəngə kənd mədəniyyət evi | Bədii rəhbər | 1 |
| 942010088 | | Mədəni təşkilatçı | 1 |
| 942011035 | Ələkli kənd mədəniyyət evi | Direktor | 1 |
| 942014035 | İbadulla kənd mədəniyyət evi | Direktor | 1 |
| | Qarahəsənli kənd mədəniyyət evi | Bədii rəhbər | 1 |
| 942015087 | | Metodist | 1 |
| 942015088 | | Mədəni təşkilatçı | 1 |
| 942018088 | Maxta kənd mədəniyyət evi | Mədəni təşkilatçı | 1 |
| | Oğlanqala kənd mədəniyyət evi | Direktor | 1 |
| 942019087 | | Metodist | 1 |
| | Püsyan kənd mədəniyyət evi | Direktor | 1 |
| 942020087 | | Metodist | 1 |
| 942022088 | Şəhriyar kənd mədəniyyət evi | Mədəni təşkilatçı | 1 |
| 942027092 | Şərur şəhər klubu | Müdir | 1 |
| 942028088 | Axaməd kənd klubu | Mədəni təşkilatçı | 1 |
| 942037088 | Diyadin kənd klubu | Mədəni təşkilatçı | 1 |
| 945018088 | Dizə kənd klubu | Mədəni təşkilatçı | 1 |
| | Həmzəli kənd klubu | Müdir | 1 |
| 942041088 | | Mədəni təşkilatçı | 1 |
| 942043092 | Kərimbəyli kənd klubu | Müdir | 1 |
| 942045088 | Kürçülü kənd klubu | Mədəni təşkilatçı | 1 |
| 942046092 | Kürkəndi kənd klubu | Müdir | 1 |
| | Qaraburc kənd klubu | Müdir | 1 |
| 942047088 | | Mədəni təşkilatçı | 1 |
| 942049088 | Qorçulu kənd klubu | Mədəni təşkilatçı | 1 |
| 942052088 | Muğanlı kənd klubu | Mədəni təşkilatçı | 1 |
| 942053092 | Sərxanlı kənd klubu | Müdir | 1 |
| 942054088 | Şahbulaq kənd klubu | Mədəni təşkilatçı | 1 |
| 942055088 | Təzəkənd kənd klubu | Mədəni təşkilatçı | 1 |
| 942056088 | Tumaslı kənd klubu | Mədəni təşkilatçı | 1 |
| 942059088 | Yuxarı Daşarx kənd klubu | Mədəni təşkilatçı | 1 |
| 942062106 | Şərur Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanası | Tərtibatçı rəssam | 1 |
| 942063030 | Şərur Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanası, Musiqi not şöbəsi | Böyük kitabxanaçı | 1 |
| 942064013 | Şərur Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanası, Oxuculara xidmət şöbəsi | Baş kitabxanaçı | 1 |
| 942067030 | Şərur Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Uşaq Kitabxanası | Böyük kitabxanaçı | 1 |
| 942079050 | Danyeri kənd kitabxana filialı | Filial müdiri | 1 |

| | | | |
|---|---|---|---|
| 942087050 | Həmzəli kənd kitabxana filialı | Filial müdiri | 1 |
| 942090050 | Xətai kənd kitabxana filialı | Filial müdiri | 1 |
| 942093050 | Kürçülü kənd kitabxana filialı | Filial müdiri | 1 |
| 942094050 | Kürkənd kənd kitabxana filialı | Filial müdiri | 1 |
| 942096050 | Qarxun kənd kitabxana filialı | Filial müdiri | 1 |
| 942099050 | Mahmudkənd kitabxana filialı | Filial müdiri | 1 |
| 942109071 | Tənənəm kənd kitabxana filialı | Kitabxanaçı | 1 |
| 942117107 | Şərur Rayon Mədəniyyət Sarayının "Şərur" Xalq Yallı Ansamblı | Üzv | 2 |
| 942122071 | Aralıq Kənd Uşaq Musiqi Məktəbi | Kitabxanaçı | 0,5 |
| 942123071 | Şəhriyar Kənd Uşaq Musiqi Məktəbi | Kitabxanaçı | 0,5 |
| 942124071 | Yuxarı Daşarx Kənd Uşaq Musiqi Məktəbi | Kitabxanaçı | 0,5 |
| **Cəmi:** | | | **58,5** |
| **Babək Rayon Mədəniyyət Şöbəsi** | | | |
| 943000018 | Babək Rayon Mədəniyyət Sarayı | Bədii rəhbər | 1 |
| 943001088 | Babək şəhər mədəniyyət evi | Mədəni təşkilatçı | 1 |
| 943001087 | | Metodist | 1 |
| 943006087 | Güznüt kənd mədəniyyət evi | Metodist | 1 |
| 943008018 | Kültəpə kənd mədəniyyət evi | Bədii rəhbər | 1 |
| 943011018 | Nəhəcir kənd mədəniyyət evi | Bədii rəhbər | 1 |
| 943018088 | Göynük kənd klubu | Mədəni təşkilatçı | 1 |
| 943019092 | Xalxal kənd klubu | Müdir | 1 |
| 943019088 | | Mədəni təşkilatçı | 1 |
| 943067092 | Gülşənabad kənd klubu | Müdir | 1 |
| 943067088 | | Mədəni təşkilatçı | 1 |
| 943023088 | Naxışnərgiz kənd klubu | Mədəni təşkilatçı | 1 |
| 943025088 | Şəkərabad kənd klubu | Mədəni təşkilatçı | 1 |
| 943030098 | Babək Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanası, Oxuculara xidmət şöbəsi | Oxu zalı müdiri | 1 |
| 943030030 | | Böyük kitabxanaçı | 1 |
| 943031105 | Babək Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanası, Metodika və biblioqrafiya şöbəsi | Şöbə müdiri | 1 |
| 943031013 | | Baş kitabxanaçı | 1 |
| 943032092 | Babək Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Uşaq Kitabxanası | Müdir | 1 |
| 943032030 | | Böyük kitabxanaçı | 1 |
| 943032071 | | Kitabxanaçı | 1 |
| 943038092 | Göynük kənd kitabxana filialı | Müdir | 1 |
| 943040092 | Güznüt kənd kitabxana filialı | Müdir | 1 |
| 943040071 | | Kitabxanaçı | 1 |
| 943068071 | Araz kənd kitabxanası | Kitabxanaçı | 1 |
| 943069092 | Nehrəm qəsəbə kitabxana filialı | Müdir | 1 |
| 943070092 | Kültəpə kənd kitabxana filialı | Müdir | 1 |
| 943063071 | Cəhri Qəsəbə Uşaq Musiqi Məktəbi | Kitabxanaçı | 0,5 |
| 943064071 | Nehrəm Qəsəbə Uşaq Musiqi Məktəbi | Kitabxanaçı | 0,5 |
| 943065071 | Şıxmahmud Kənd Uşaq Musiqi Məktəbi | Kitabxanaçı | 0,5 |
| 943066071 | Zeynəddin Kənd Uşaq Musiqi Məktəbi | Kitabxanaçı | 0,5 |
| **Cəmi:** | | | **28** |
| **Ordubad Rayon Mədəniyyət Şöbəsi** | | | |
| 944000018 | Ordubad Rayon Mədəniyyət Sarayı | Bədii rəhbər | 1 |
| 944000087 | | Metodist | 1 |
| 944002035 | Aşağı Əndəmic kənd mədəniyyət evi | Direktor | 1 |
| 944002087 | | Metodist | 1 |
| 944003035 | Aşağı Əylis kənd mədəniyyət evi | Direktor | 1 |
| 944003018 | | Bədii rəhbər | 1 |
| 944004035 | Aza kənd mədəniyyət evi | Direktor | 1 |
| 944004088 | | Mədəni təşkilatçı | 1 |
| 944005088 | Bist kənd mədəniyyət evi | Mədəni təşkilatçı | 1 |
| 944006018 | Dəstə kənd mədəniyyət evi | Bədii rəhbər | 1 |
| 944008035 | Düylün kənd mədəniyyət evi | Direktor | 1 |
| 944008087 | | Metodist | 1 |
| 944008088 | | Mədəni təşkilatçı | 1 |
| 944012018 | Tivi kənd mədəniyyət evi | Bədii rəhbər | 1 |
| 944012088 | | Mədəni təşkilatçı | 1 |
| 944014035 | Üstüpü kənd mədəniyyət evi | Direktor | 1 |
| 944016035 | Yuxarı Əylis kənd mədəniyyət evi | Direktor | 1 |
| 944016018 | | Bədii rəhbər | 1 |
| 944017088 | Ordubad şəhər klubu | Mədəni təşkilatçı | 1 |
| 944020092 | Behrud kənd klubu | Müdir | 1 |
| 944020088 | | Mədəni təşkilatçı | 1 |
| 944021092 | Çənnəb kənd klubu | Müdir | 1 |
| 944021088 | | Mədəni təşkilatçı | 1 |
| 944023088 | Gilançay kənd klubu | Mədəni təşkilatçı | 1 |
| 944024088 | Xurs kənd klubu | Mədəni təşkilatçı | 1 |
| 944026092 | Qoşadizə kənd klubu | Müdir | 1 |
| 944026088 | | Mədəni təşkilatçı | 1 |
| 944028088 | Nəsirvaz kənd klubu | Mədəni təşkilatçı | 1 |
| 944030088 | Parağa kənd klubu | Mədəni təşkilatçı | 1 |
| 944032088 | Sabirkənd kənd klubu | Mədəni təşkilatçı | 1 |
| 944035106 | Ordubad Rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi | Tərtibatçı rəssam | 1 |
| 944037002 | Ordubad Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanası, Oxuculara xidmət şöbəsi | Abonement üzrə kitabxanaçı | 1 |
| 944038031 | Ordubad Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanası, Metodika və biblioqrafiya şöbəsi | Böyük metodist | 1 |
| 944038071 | | Kitabxanaçı | 1 |
| 944077050 | Yuxarı Əylis kənd kitabxana filialı | Filial müdiri | 1 |
| 944046050 | Baş Dizə kənd kitabxana filialı | Filial müdiri | 1 |
| 944054050 | Gənzə kənd kitabxana filialı | Filial müdiri | 1 |
| 944055050 | Gilançay kənd kitabxana filialı | Filial müdiri | 1 |
| 944071011 | Məmməd Səid Ordubadinin ev-muzeyi | Baş fond mühafizi-elmi işçi | 1 |
| **Cəmi:** | | | **39** |

| | | | |
|---|---|---|---|
| **Culfa Rayon Mədəniyyət Şöbəsi** | | | |
| 945002022 | Culfa Rayon Mədəniyyət Sarayı | Bədii rəhbər-rejissor | 1 |
| 945002106 | | Tərtibatçı rəssam | 1 |
| 945002088 | | Mədəni təşkilatçı | 1 |
| 945003035 | Bənəniyar kənd mədəniyyət evi | Direktor | 1 |
| 945004087 | Camaldın kənd mədəniyyət evi | Metodist | 1 |
| 945005018 | Əbrəqunus kənd mədəniyyət evi | Bədii rəhbər | 1 |
| 945015035 | Yaycı kənd mədəniyyət evi | Direktor | 1 |
| 945016092 | Culfa şəhər klubu | Müdir | 1 |
| 945018092 | Dizə kənd klubu | Müdir | 1 |
| 945020092 | Gal kənd klubu | Müdir | 1 |
| 945020088 | | Mədəni təşkilatçı | 1 |
| 945022088 | Ləkətağ kənd klubu | Mədəni təşkilatçı | 1 |
| 945023092 | Şurud kənd klubu | Müdir | 1 |
| 945023088 | | Mədəni təşkilatçı | 1 |
| 945024092 | Teyvaz kənd klubu | Müdir | 1 |
| 945027098 | Culfa Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanası, Oxuculara xidmət şöbəsi | Oxu zalının müdiri | 1 |
| 945029030 | Culfa Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Uşaq Kitabxanası | Böyük kitabxanaçı | 2 |
| 945035050 | Gal kənd kitabxana filialı | Filial müdiri | 1 |
| 945040050 | Qızılca kənd kitabxana filialı | Filial müdiri | 1 |
| 945045050 | Teyvaz kənd kitabxana filialı | Filial müdiri | 1 |
| 945050024 | Culfa Rayon Tarix-Diyarşünaslıq Muzeyi | Bərpaçı rəssam | 1 |
| 945052071 | Bənəniyar Kənd Uşaq Musiqi Məktəbi | Kitabxanaçı | 0,5 |
| **Cəmi:** | | | **22,5** |
| **Kəngərli Rayon Mədəniyyət Şöbəsi** | | | |
| 946002022 | Kəngərli Rayon Mədəniyyət Sarayı | Bədii rəhbər-rejissor | 1 |
| 946002087 | | Metodist | 1 |
| 946002088 | | Mədəni təşkilatçı | 1 |
| 946003035 | Böyükdüz kənd mədəniyyət evi | Direktor | 1 |
| 946003018 | | Bədii rəhbər | 1 |
| 946005088 | Qabıllı kənd mədəniyyət evi | Mədəni təşkilatçı | 1 |
| 946005018 | | Bədii rəhbər | 1 |
| 946006087 | Qarabağlar kənd mədəniyyət evi | Metodist | 1 |
| 946007088 | Şahtaxtı kənd mədəniyyət evi | Mədəni təşkilatçı | 1 |
| 946007018 | | Bədii rəhbər | 1 |
| 946010088 | Xıncab kənd klubu | Mədəni təşkilatçı | 1 |
| 946009092 | Xok kənd klubu | Müdir | 1 |
| 946009088 | | Mədəni təşkilatçı | 1 |
| 946008088 | Təzəkənd kənd klubu | Mədəni təşkilatçı | 1 |
| 946011092 | Yeni Kərki kənd klubu | Müdir | 1 |
| 946011088 | | Mədəni təşkilatçı | 1 |
| 946012088 | Yurdçu kənd klubu | Mədəni təşkilatçı | 1 |
| 946013106 | Kəngərli Rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi | Tərtibatçı rəssam | 1 |
| 946017098 | Kəngərli Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanası, Oxuculara xidmət şöbəsi | Oxu zalının müdiri | 1 |
| 946031050 | Çalxanqala kənd kitabxana filialı | Filial müdiri | 1 |
| 946024050 | Şahtaxtı kənd kitabxana filialı | Filial müdiri | 1 |
| 946025050 | Təzəkənd kənd kitabxana filialı | Filial müdiri | 1 |
| 946029106 | Kəngərli RayonTarix-Diyarşünaslıq Muzeyi | Tərtibatçı rəssam | 1 |
| 946028011 | Şahtaxtinskilər Muzeyi | Baş fond mühafizi-elmi işçi | 1 |
| 946031071 | Çalxanqala Kənd Uşaq Musiqi Məktəbi | Kitabxanaçı | 0,5 |
| **Cəmi:** | | | **24,5** |
| **Şahbuz Rayon Mədəniyyət Şöbəsi** | | | |
| 947001022 | Şahbuz Rayon Mədəniyyət Sarayı | Bədii rəhbər-rejissor | 1 |
| 947001106 | | Tərtibatçı rəssam | 1 |
| 947004087 | Badamlı kənd mədəniyyət evi | Metodist | 1 |
| 947004088 | | Mədəni təşkilatçı | 1 |
| 947008035 | Keçili kənd mədəniyyət evi | Direktor | 1 |
| 947010087 | Kükü kənd mədəniyyət evi | Metodist | 1 |
| 947018072 | Ağbulaq kənd klubu | Klub müdiri | 1 |
| 947018088 | | Mədəni təşkilatçı | 1 |
| 947027101 | Şahbuz Rayon Xalq Teatrı | Rejissor | 1 |
| 947027103 | | Rəssam | 1 |
| 947028106 | Şahbuz Rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi | Tərtibatçı rəssam | 1 |
| 947029105 | Şahbuz Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanası, Metodika və biblioqrafiya şöbəsi | Şöbə müdiri | 1 |
| 947037050 | Badamlı qəsəbə kitabxana filialı | Filial müdiri | 1 |
| 947034050 | Aşağı Qışlaq kənd kitabxana filialı | Filial müdiri | 1 |
| 947045050 | Qızıl Qışlaq kənd kitabxana filialı | Filial müdiri | 1 |
| 947051050 | Yuxarı Qışlaq kənd kitabxana filialı | Filial müdiri | 1 |
| 947053106 | Şahbuz Rayon Tarix-Diyarşünaslıq Muzeyi | Tərtibatçı rəssam | 1 |
| 947054071 | Kolanı Kənd Uşaq Musiqi Məktəbi | Kitabxanaçı | 0,5 |
| **Cəmi:** | | | **17,5** |
| **Sədərək Rayon Mədəniyyət Şöbəsi** | | | |
| 948003018 | Dəmirçi kənd mədəniyyət evi | Bədii rəhbər | 1 |
| 948007105 | Sədərək Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanası, Oxuculara xidmət şöbəsi | Şöbə müdiri | 1 |
| 948008105 | Sədərək Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanası, Kitabişləmə və komplektləşdirmə şöbəsi | Şöbə müdiri | 1 |
| 948010030 | Sədərək Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanası, Uşaq şöbəsi | Böyük kitabxanaçı | 1 |
| 948005088 | Qaraağac kənd klubu | Mədəni təşkilatçı | 1 |
| 948015011 | Sədərək Rayon Tarix-Diyarşünaslıq Muzeyi | Baş fond mühafizi-elmi işçi | 1 |
| 948015023 | | Bələdçi | 1 |
| 948016071 | Sədərək Rayon Uşaq Musiqi Məktəbi | Kitabxanaçı | 0,5 |
| **Cəmi:** | | | **7,5** |
| **Yekun:** | | | **348** |


ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 52